**DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!**

**AZƏRBAYCANIN GƏLƏCƏYİNƏ SƏS VER!**

# Deputatlığa namizəd Eldar İbrahimov Naxçıvanda YAP fəalları və seçicilərlə görüşüb








Yeni Azərbaycan Partiyasının (YAP) 4 saylı Naxçıvan şəhər seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclisinin deputatlığına namizədi Eldar İbrahimovun təbliğat-təşviqat kampaniyası çərçivəsində partiya fəalları və seçicilərlə görüşü olub.




Görüşü giriş sözü ilə YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli açaraq, 2020-ci il fevralın 9-da ölkə parlamentinə keçiriləcək seçkilərin əhəmiyyətindən danışıb, bu mühüm siyasi kampaniyada partiya fəallarının qarşısında duran vəzifələrdən bəhs edib.

Sonra 4 saylı Naxçıvan şəhər seçki dairəsindən Milli Məclisin deputatlığına namizəd Eldar İbrahimov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yarandığı dövrdən, 1990-cı illərin gərgin ictimai-siyasi proseslərindən, özünün partiyanın yaranması və fəaliyyətindəki iştirakından ətraflı bəhs edib. Eldar İbrahimov ölkəmizin müstəqilliyin ilk illərindəki və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasətinin ifadəsi kimi bugünkü inkişaf göstəricilərini əks etdirən faktlarla Yeni Azərbaycan Partiyasının iqtidarda olduğu dövrün müqayisəli təhlilini aparıb.

Namizəd müstəqillik illərində, xüsusən son 25 ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının əsas göstəricilərini görüş iştirakçılarının diqqətinə çatdırıb. Qeyd olunub ki, məhz partiyamızın iqtidarda olduğu dövrdə ölkəmizdə yaradılan dayanıqlı ictimai-siyasi sabitlik və uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf konsepsiyası müstəqillik illərindəki bütün prezident, parlament və bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının qələbəsini təmin edib. Eldar İbrahimov əmin olduğunu bildirib ki, Azərbaycan seçicisi fevralın 9-da ölkə parlamentinə keçiriləcək seçkilərdə də Yeni Azərbaycan Partiyasının qələbəsi üçün öz səsini verəcək.

Daha sonra partiya fəallarının çıxışları olub. YAP Naxçıvan şəhər təşkilatının Şura üzvləri və ərazi ilk partiya təşkilatı sədrləri Anar Abuzərli və Könül Mirzəyeva çıxış edərək, uğurlu təşviqat kampaniyası münasibətilə Eldar İbrahimovu təbrik ediblər. Çıxışlarda əminliklə vurğulanıb ki, böyük hissəsini Yeni Azərbaycan Partiyasının üzvlərinin təşkil etdiyi Naxçıvan şəhərinin seçiciləri seçki günü Eldar İbrahimova səs verməklə, partiyanın seçkilərdəki ümumi qələbəsinin təmin olunmasına töhfə verəcəklər.

Görüşdən sonra partiya fəalları və seçicilər Eldar İbrahimovla fərdi söhbətlər edib, fikir və təkliflərini bölüşüblər.

# Nəsib Məhəməliyevin təşviqat kampaniyası çərçivəsində növbəti görüşləri keçirilib




9 fevral tarixində Milli Məclisə keçiriləcək seçkilərdə Yeni Azərbaycan Partiyasının (YAP) 109 saylı Balakən seçki dairəsi üzrə namizədi Nəsib Məhəməliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə yüksək ab-havada və seçici fəallığı şəraitində keçən görüşləri davam edir. Kampaniya çərçivəsində növbəti görüş rayonun Tülü kəndində keçirilib. Görüşdə namizədin vəkilləri və təşviqat qrupunun üzvləri çıxış edərək YAP-ın namizədi Nəsib Məhəməliyevin beşinci çağırış Milli Məclisin üzvü kimi uğurlu fəaliyyəti haqqında məlumat veriblər.



Görüşdə çıxış edən Nəsib Məhəməliyev əvvəlcə YAP-ın Azərbaycan dövlətinin inkişafında xidmətlərini vurğulayıb.

Onun sözlərinə görə, partiyamız daha güclü Azərbaycan naminə devizi ilə seçkilərə qatılıb. YAP-ın namizədi bir daha seçiciləri fəal olmağa və seçkilərdə iştirak edib ən uğurlu namizədə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər - Əyyub Abdullayev, Qüdrət Mehdiyev, Akif Mirzəyev, Elşad Dabaxov, Təranə Layicova, Firəngiz Orucova, Zumrat Qarayev, Mehman Əzizov, Gülarə Mustafayeva və digərləri YAP-ın namizədinə dəstəklərini ifadə ediblər.

Rayonun mərkəzində 1 nömrəli peşə məktəbinin həyətində açıq havada keçirilən ikinci görüşdə də çıxış edən təbliğat qrupunun üzvləri daha güclü Azərbaycan naminə YAP-ın namizədlərinə səs verməyə çağırıblar. Seçicilərdən - Əsli Cavadova, Həlimət Tağıyeva, Ruzigar İbadova, Rəhim Tağıyev və digərləri YAP-ın namizədi Nəsib Məhəməliyevin millət vəkili kimi, hər zaman seçicilərin yanında olduğunu, onları layiqli şəkildə təmsil etdiyini, seçicilərinin qayğılarına yüksək həssaslıq və diqqət göstərdiyini vurğulayıblar. Seçicilər əminliklə qeyd ediblər ki, onlar səsvermə günü seçki məntəqələrinə gedərək Nəsib Məhəməliyevə səs verəcəklər.

# Elnur Allahverdiyev seçki kampaniyası çərçivəsində həyata keçirdiyi təşviqat işlərinə dair hesabat xarakterli görüş keçirib




Yeni Azərbaycan Partiyasının (YAP) 17 saylı Yasamal üçüncü seçki dairəsindən deputatlığa namizədi Elnur Allahverdiyev seçicilərlə növbəti görüşünü keçirib. Görüş E.Allahverdiyevin seçki kampaniyası çərçivəsində həyata keçirdiyi təşviqat işlərinə dair hesabat xarakteri daşıyıb. Tədbirdə çıxış edən natiqlər bütün seçiciləri E.Allahverdiyevə səs verməyə çağırıblar və E.Allahverdiyevin seçicilərin etimadını doğruldacağına əminliklərini ifadə ediblər.

Tədbirdə çıxış edən deputatlığa namizəd E.Allahverdiyev bildirib ki, seçki kampaniyası çərçivəsində maksimum sayda görüş keçirmək, evlərə getmək və seçicilərlə ünsiyyət qurmaq niyyətində olub və 17 saylı Yasamal üçüncü seçki dairəsinin hüdudlarına daxil olan təxminən 50-dən çox evə gedilib, seçki qərargahının üzvləri seçicilərin istəkləri və qayğıları ilə tanış olublar. Seçki dairəsi üzrə 30 min nəfərdən çox seçicinin 13 mindən artıq ünvanda yaşadığını dilə gətirən E.Allahverdiyev bütün ünvanlara təşviqat materiallarının verildiyini deyib. E.Allahverdiyev bildirib ki, seçicilər fevralın 9-da fəal şəkildə seçkidə iştirak edəcəklərini və YAP-ın irəli sürdüyü namizədə səs verəcəklərini bildiriblər.

# Səməd Seyidov Qazax şəhərində seçicilərlə izdihamlı görüş keçirib




Yeni Azərbaycan Partiyasının (YAP) 107 saylı Qazax seçki dairəsindən deputatlığa namizədi Səməd Seyidovun təbliğat kampaniyası uğurla davam edir. Kampaniya çərçivəsində Səməd Seyidovun Qazax şəhərində Qarabağ əlilləri və şəhid ailələrinin üzvləri yaşayış binalarının həyətində görüşləri baş tutub. Bununla yanaşı, YAP-ın deputatlığa namizədi Qazax şəhər mədəniyyət mərkəzində seçicilərlə izdihamlı görüş keçirib. Tədbiri giriş sözü ilə açan YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı məlumat verib. Natiq ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin bölgələrdə də hiss olunduğunu önə çəkib. Qazax rayonunun timsalında da görülən işlərin yüksək səviyyədə olduğunu bildirən H.Pənahov Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan quruculuq işlərinin davamlı olacağına əminliyini ifadə edib.

Çıxış edən S.Seyidovun vəkili Firdovsi Umudov bildirib ki, xalqımız Yeni Azərbaycan Partiyasına inanır, bu partiyanın irəli sürdüyü namizədlərə etimad göstərir. F.Umudov Qazax seçicilərinin daha güclü Azərbaycan naminə YAP-ın namizədlərinə səs verəcəklərinə əminliyini ifadə edib.

Görüşlərdə çıxış edən Səməd Seyidov respublikamızın bütün rayonlarında olduğu kimi, Qazaxda da sistemli islahatlar həyata keçirildiyini önə çəkib. Qeyd edilib ki, ölkəmizin inkişafına təkan verən uzunmüddətli islahatlar proqramı Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasına olan inam və etibarının daha da möhkəmlənməsinə yol açıb: **“Xalqımız dəyişiklikləri, sosial vəziyyətin yüksəlməsini öz həyatında hiss edir. Bu gün Azərbaycan yüksək inkişaf yolundadır və bu yolun davamlı olması üçün seçicilər möhtərəm Prezidentimizin Sədri olduğu YAP-ın namizədlərinə səs verəcəklər”.**

# YAP Səbail rayon təşkilatında ərazi ilk partiya təşkilatı sədrlərinin geniş toplantısı keçirilib




Dünən Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatının qərargahında ərazi ilk partiya təşkilatları sədrlərinin geniş toplantısı keçirilib.

Toplantıda 9 fevral tarixində keçiriləcək növbədənkənar parlament seçkilərinə Səbail rayonunda aparılan hazırlıq işləri və 29 saylı Səbail seçki dairəsindən YAP-ın namizədi Aytən Hüseynovanın təbliğat-təşviqat kampaniyası haqqında məlumat verilib və qarşıda duran vəzifələr müzakirə olunub.

Çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri Şəmsəddin Hacıyev son illər, xüsusilə 2018-ci ildən etibarən ölkəmizin siyasi, iqtisadi, sosial, mədəni həyatında baş verən köklü dəyişikliklər haqqında geniş məlumat verib.

Ş.Hacıyev həmçinin diqqətə çatdırıb ki, YAP-ın deputatlığa namizədi Aytən Hüseynovanın Səbail rayonu ərazisində təbliğat-təşviqat kampaniyası uğurla davam edir, YAP namizədi seçicilərlə əsasən sakinlərin sıx yaşadığı ərazilərdə, Bayılda, Bibiheybət və Badamdar qəsəbələrinin məhəllələrində görüş keçirir, evlərində qonaq olur, şəhid ailələrini ziyarət edir. Səbail rayonunda seçkilərin hər zaman olduğu kimi, tam demokratik, aşkar və şəffaf şəraitdə keçirilməsi üçün zəruri hazırlıq işlərinin tamamlandığını qeyd edən Ş.Hacıyev bildirib ki, rayon ərazisində əksər məntəqələrdə quraşdırılmış veb-kameralar vasitəsilə seçki prosesi gün ərzində əvvəldən axıra kimi izləniləcəkdir. Sədr bu seçkilərdə də Səbail rayonunda yüksək seçici fəallığının qeydə alınacağına dair əminliyini ifadə edərək YAP namizədinə uğurlar arzulayıb.

İşgüzar şəraitdə davam edən toplantıda qarşıda duran vəzifələr müzakirə olunub, ərazi ilk partiya təşkilatları sədrlərinə müvafiq tapşırıqlar verilib və təşkilat sədrlərini maraqlandıran suallar cavablandırılıb.

MÜŞFİQƏ